# FACİƏLİ TALELƏRDƏN



*Şəmistan NƏZİRLİ*

*(Əvvəli ötən sayımızda)*

51. Fransanın milli qəhrəmanı, vətənini ingilis işğalçılarından azad edən janna d,Ark (1412-1431) on doqquz yaşında mayın 30-da tonqalda diri-diri yandırılmışdır.

52. Ispan xalqının dahi şairi Federiko Qarsia Lorka (5.06.1898-1936) avqustun 19-da otuz səkkiz yaşında faşistlər tərəfindən güllələnmişdir.

53. Gürcü ədəbiyyatının klassiki Ilya Çavçavadze (1837-1907) çar rusiyasının işğalçı siyasətindən açıq-aydın yazdığına görə mütləqiyyət üçün xoşagəlməz bir şəxsiyyət idi. O sentyabrın 12-də Tbilisidən Saqurmaya gedərkən yolda Sipaturi kəndi yanında çarın gizli polis idarəsinin öyrətmiş olduğu quldur dəstəsi tərəfindən öldürüldü.

54. Görkəmli publisist, içtimai-siyasi xadim və məşhur «Molla Nəsrəddin»çi Ömər Faiq Nemanzadə (1872-1937) Üçlüyün hökmü ilə oktyabrın 10-da güllələnmişdir.

55. Məşhur Avar şairi Mahmud Kahablı (1873-1919) gecə vaxtı xudmani poeziya məclisindən çıxarkən düşmənləri tərəfndən öldürülmüşdür.

56. Fars ədəbiyyatının görkəmli şairi Mirzə Məhəmməd Fərruxi Yəzdi (1889-1939) şeirlərində Rza şah hakimiyyətini kəskin tənqid etdiyinə görə cəlladlar onun dodaqlarını biz və sapla tikmişlər. Zindanda olmazın əzab çəkən şair oktyabrın 18-də ölmüşdür.

57. Məşhur rus publisisti Pyotr Çaadayev (1794-1856) «Fəlsəfi məktublar» əsərini «Teleskop» jurnalında dərc etdirdikdən sonra hakimiyyət orqanlarının bərk narazılığına səbəb oldu. Mütləqiyyət Çaadayevi rəsmi olaraq dəli elan edib və çərənlədib öldürdü

58. Salam Adil (1924-1963). Iraq fəhlə və Milli azadlıq hərəkatının görkəmli xadimi. 1963-cü il fevralın 8-də baş vermiş dövlət çevrilişi zamanı həbs edilmiş və ağır işgəncələrdən sonra edam edilmişdir.

59. Məşhur rus sovet yazıçısı ictimai xadim, I.V.Stalin mükafatı laureatı, xalq şairi Səməd Vurğunun şəxsi dostu Aleksandr Fadeyev (24.12.1901-1956) nadan hökümət başçısı Nikita Xruşşovün haqsız təziqlərindən dərin ruhi böhran keçirərək may ayının 13-də intihar etmişdir.

60. Londonda muhacirətdə yaşayan, Fridrix Engelsin silahdaşı, inqilabçı rus yazıçısı Sergey Kravçinski (1851-1895) dekabrın 23-də dəmir yolunu keçərkən qatarın altında qalıb həlak oldu.

61. Böyük azərbaycan aktyoru, müdrik və mərd obrazlar yaradıcısı Ülvi Rəcəb Şaşıq oğlu (1903-1938) mart ayında represiyanın haqsız qurbanı oldu.

62. Görkəmli Özbək şairi, ictimai-siyasi xadim və bəstəkar Həmzə Həkimzadə (1889-1929) mart ayının 18-də fanatik dindarlar tərəfindən öldürülmüşdür.

63. Məşhur avstriyalı yazıçı Stefan Sveq (1881-1942) Rio de-Jander şəhərində intihar etmişdir.

64. Hürufiliyin banisi-Azərbaycanın məşhur mütəfəkkiri, alimi və şairi Şeyx Fəzlullah Nəimi (1339-1394) Fateh Teymurləngin əmriylə onun oğlu Miranşah tərəfindən həbsə alınıb Naxçıvandakı Əlincə qalasına aparılaraq, orada dəhşətli sürətdə e,dam edildi.

65. Qərbi Avropada kilsə islahatı uğrunda mübarizə aparan çex xalq qəhrəmanı Yan Qus (1371-1415), məhkəmənin qərarı ilə Konstansa şəhərində tonqalda yandırılmışdır. Yan Qus 1402-1410-cu illərdə Karlova Universitetinin rektoru olmuşdur.

66. İtalyan filosofu, şair Cordano Bruno (1548-1600) katolisizmin, sxolastika və dini cəhalətin barışmaz düşməni olduğuna görə bidətçilik və azad fikirlilikdə təqsirləndirilərək səkkiz illik həbsdən sonra fevralın 17-də diri-diri tonqalda yandırılmışdır.

67. XIX əsrin yetmişinci illərində Türkiyədə məşrutə hərəkatının rəhbəri, tərəqqipərvər ictimai xadim Midhət Paşa (18822-1883) Sultan istibdadına qarşı mübarizə apardığına görə ağır cəzalarla qətlə yetirilmişdir.

68. Türkiyədə Sultan zülmünə qarşı məşruta uğrunda mübarizə hərkatının qabaqcıl xadimi yazıçı, publisist Əli Süavi (1838-1878), Istanbul üsyanında həlak olmuşdur.

69. Türkiyə sosialist partiyasının görkəmli xadimi, Türkiyədə kommünist partiyasının banilərindən biri Mustafa Sübhi (1883-1926) Tarbzonda on altı Türk kommunisti ilə birlikdə qətl olunmuşdur.

70. Qazaxlı şair, general Əliağa Şıxlinski nəslinin qüdrətli nümayəndəsi mayor Mustafa ağa Arif Şıxlinski (1774-1845) Qafqazda istilaçı rus qoşunlarını tənqid etdiyinə görə 1826-cı ildə Sibirə Sürgün olunmuşdur. On üç il sürgündə vətən həsrəti çəkən şair yetmiş bir yaşında Kazanda vəfat etmişdir.

71. Azərbaycan ədəbiyyatı tarixində anadilli şe,rimizi zənginləşdirən Seyid Imaməddin Nəsimi (1369-1417) əsərlərində panteizm və hürufilik əqidələrini təbliq etdiyinə görə din xadimləri onu «kafir» adlandırır və ölümünə fitva verirlər. 1417-ci ildə şair Hələb hökmdarı Yəşbəkin əmri ilə Hələbin qala zindanında dustaq edilir.

Az sonra məhkəmənin sənədləri ilə tanış olan Misir Sultanı Əl Müəyyəd şairin diri-diri dərisi soyulub, yeddi gün Hələb şəhərində hamıya göstərilməsi haqqında əmr verir. Nəsimi faciəli surətdə soyulanda ölüm ayağında da fikrindən dönmür, «Ənəlhəq»-«Mənəm Allah», - deyir. Şairin dönməzliyi və mətanəti qarşısında özünü itirən ruhanilər kinayə ilə soruşurlar:

-Sən ki, haqsan, bəs niyə qanın axdıqca saralırsan?

Məğrur və hazırcavab şair:

-Mən əbədiyyət üfüqlərində doğan eşq gunəşiyəm. Günəş batanda saralar,- deyə cəsarətlə cavab verir.

72. Görkəmli Amerika yazıçısı Cek London (12.01.1876-1916). Ilk gəncliyindən sərgərdan həyat keçirmiş, ağır günəmuzd işlərdə çalışmış, gəmidə qabyuyan matros, reportyor, müxbir olmuşdur. «Martin İden» bioqrafik romanın, «Dəmir daban», «Dəniz canavarı», «Həyat eşqi» və başqa klassik əsərlərin müəllifidir. Gecəli-gündüzlü ağır yaradıcılıq işi onu əldən salmış, əsəbləri korlanmışdır. Noyabrın 22-də özünü öldürmüşdür.

73. Dekabrist, məşhur rus şairi Vilhelm Küxelbeker (21.06.1797-1846). Dekabrislər üsyanın məğlubiyyətindən sonra ölümə məhkum edilmiş, lakin edam hökmü iyirmi illik katorqa ilə əvəz olunmuşdur. On il tək adamlıq kamerada saxlanıldıqdan sonra Sibirə sürgün olunan Küxelbekerin gözləri kor olmuş, vərəm xəstəliyindən avqustun 23-də ölmüşdür.

74. Məşhur Amerika yazıçısı Ernest Heminquey (12.07.1899-1961). Ölümündən bir il əvvəl əsəb xəstəliyinə tutulur. «Yorğan-döşəkdə ölməyə kişinin haqqı yoxdur. Kişi ya döyüşdə, ya da kəlləsinə bir güllə çaxıb ölməlidir» - deyən Xeminquey iyulun 2-də ov silahı ilə özünü öldürür.

75. XIX əsrin ən məşhur gürcü yazıçılarından olan Aleksandr Kazbeqi (1848-1893) var-dövlətli, cah-calallı zəngin bir ailədə böyümüşdür. Moskvada ali təhsil alıb Gürcüstana qayıdır, dağlı kəndlilərini ağır töycü və vergilərdən azad edir. Xalqın həyatını dərindən öyrənmək üçün əlinə çomaq alıb yeddi il çobanlıq edir. «Ata qatili», «Çobanın xatirələri», «Səfil» kimi əbədi yaşar əsərlər yazır.

Ömrünün sonunda rus imperiyasının təqibləri, ağır həyat və gərgin əmək A. Kazbeqinin səhhətini pozur, dəli olub ölür.

76. Məşhur rus yazıçısı Nikolay Qoqol (01.04.1809-1852). Əsərlərində təhkimçiliyi qətiyyətlə pisləyən, hakim sinifin geriliyini və mə,nəvi iflasını açıq-aydın göstərdiyinə görə mürtəce dairələrin hücumuna mə,ruz qalmışdır. Əsəbiləşib məşhur «Ölü canlar» əsərinin ikinci cildinin əl yazmasını yandırmışdır. Dindarlara qoşulan Qoqol dərin mə,nəvi böhran keçirərək martın 4-də dəli olub ölmüşdür.

77. Dekabristlər üsyanın fəal iştirakçısı, məşhur rus yazıçısı, Azərbaycan və Qafkaz haqqında gözəl əsərlər müəllifi Alekandr Bestujev-Marlinski (3.11.1797-1837). Dekabrislər üsyanın məğlubiyyətindən sonra iyirmi illik Yakutiyaya sürgün edilmişdir. 1829-cu ildə zabit rütbəsi ləğv edilib sıravi əsgər kimi Qafqaza göndərilmişdir. Iyunun 19-da Adler yaxınlığındakı meşədə dağlı ubıxlarla döyüşdə əsir düşmüş xəncərlə doğranılmışdır.

78. Görkəmli filosof, yazıçı və inqilabçı Aleksandr Radişşev (31.08.1749-1802). «Peterburqdan Moskvaya səyahət» əsərində rusiyada qanunsuzluq və hüquqsuzluq və hüquqsuzluğun mənbəyinin mütləqiyyət və təhkimçilik quruluşunu təsvir etdiyinə görə həbs olunub Petropavlovsk qalasına salınmışdır. Şəxsən Imperatritsa II Yekatrinanın başçılıq etdiyi istintaqdan sonra məhkəmə Radişşeva ölüm cəzası kəsdi. Az sonra «rəhmli» imperatritsa ölüm hökmünü on illik Sibir sürgünü ilə əvəz etdi.

Mütləqiyyət və təhkimçilik istibdadına kəskin etiraz və nifrət əlaməti olaraq Aleksandr Radişşev sentyabrın 24-də özünü zəhərləyib öldürdü.

79. XIX əsr Polşa ədəbiyyatı tarixində inqilabi romantizmin ən iste,dadlı nümayəndəsi Adam Mitskeviç (1798-1855) şairliyi ilə yanaşı siyasi fəaliyyətini də davam etdirmişdir. O, 1855-ci ildə Konstantinapola gedir. Səfərdə məqsədi Türkiyə ilə Rusiya arasında gedən müharibədə iştirak etmək üçün Polşa legionu təşkil etmək idi.

Adam Mitskeviç həmin ildə Konstantinopolda vəba xəstəliyinə tutulur və noyabr ayında vəfat edir.

80. İnqilabçı romanlik dahi ingilis şairi Persi Bişi Şelli (4.08.1792-1822) yaradıcılığının çiçəkləndiyi dövründə, otuz yaşında iyulun 8-də Livorno yaxınlığında dənizdə gözlənilmədən baş verən fırtına zamanı həlak olur. On gündən sonra şairin meyidini dalğalar sahilə atdı. Şellinin yaxın dostu Corc Bayronun iştirakı ilə onun cəsədi yandırılıb külü Romadakı Protestant qəbristanlığında dəfn edildi.

Şair Corc Bayronun təklifi ilə qəbirdaşıda bu sözlər yazıldı: «Ürəklərin yrəyi Persi Bişi Şelliyə».

81. Qüdrətli ingilis şairi, alovlu tribun Corc Bayron (22.01.1788-1824) xalqların Avstriya qəsbkarlarının əsarətindən xilas olması üçün azadlıq uğrunda mübarizə aparan ən cəsur və mübariz bir insan idi. Yunan azadlıq mücahidlərinə kömək məqsədi ilə onlara qoşulan Bayron dağlarda döyüşərkən ona möhkəm soyuq dəymişdi. Aprel ayının 19-da şair otuz yeddi yaşında sətləcəmdən vəfat etdi.

Bayronun ürəyini silahdaşları Yunanıstanda basdırdılar. Cəsədini isə may ayında vətəni Ingiltərəyə göndərdilər. Yunanstanın hər yerində dahi şair qəhrəman Corc Bayronun həlak olmasını milli matəm elan etdilər.

82. XIX əsr Macar ədəbiyyatının ən böyük şairi Şandor Petefi (1823-1849) feodal üsuli-idarəsinə və Avstirya imperiyasına qarşı azadlıq mübarizəsinin ən fəal iştirakçısı və rəhbərlərindən biri olmuşdur.

1849-cu ilin yayında qanla yatırılan Macar inqilabının son-iyul ayında şair Şandor Petefi Şeqeşvar yaxınlığında döyüşlərdə həlak olub.

83. Görkəmli aktyor, Azərbaycanın ilk peşəkar rejissoru Hüseyn Məmməd oğlu Ərəbliniski (1881-1919) martın 3-də Nadir şah rolunda son dəfə səhnəyə çıxdı. Səhəri gün, martın 4-də axşam saat yeddidə nadan dayısı oğlu Əbdülxalıqın gülləsi ilə otuz səkkiz yaşında qətlə yetirildi.

84. Yaradıcılığı dünya musiqi sənətinin inkişafında mühüm rol oynamış dahi alman bəstəkarı Iohan Sebastyan Bax(1685-1750) ehtiyacdan dilənçi kökündə ölmüşdür.

85. Qədim yunan alimi, riyaziyyatçı və mexanik,riyazi fizikanın pioneri, mexanikanın banilərindən biri Arximedin (e.ə.287-212) başını Roma əsgərləri kəsmişlər. Deyilənə görə Arximed onu öldürən əsgərə «mənim çertyojlarıma toxunma»-deyə yalvarmışdır.

86. Dahi Nizami Gəncəvinin müasiri, XII əsrin görkəmli alim və şairi Fələki Şirvani (təx.1108-1146) Şirvanşah Mənüçehrin (1120-1149) qəzəbinə düçar olmuş və həbsxanada ölmüşdür.

*(Davamı var)*